QANUN № 01 (375), 2026, s. 197-204

**Babayeva Nərmin Sahib qızı,**
Bakı Dövlət Universitetinin Cinayət hüququ və kriminologiya kafedrasının II kurs magistrantı
E-mail: bnrmin@list.ru

**UOT 343.985**
**DOI: https://doi.org/10.30546/2218-9130.041.2026.4092**

# ƏHALİNİ DEPORTASİYA ETMƏ VƏ YA MƏCBURİ KÖÇÜRMƏ CİNAYƏTİNİN BEYNƏLXALQ CİNAYƏTLƏR SİSTEMİNDƏ YERİ

***Açar sözlər:*** *deportasiya, məcburi köçürmə, beynəlxalq hüquq, beynəlxalq cinayətlər, diplomatik tədbirlər.*

***Ключевые слова:*** *депортация, принудительное переселение, международное право, международные преступления, дипломатические меры.*

***Keywords:*** *deportation, forced relocation, international law, international crimes, diplomatic measures.*

## Giriş

Deportasiya və məcburi köçürmə beynəlxalq hüquqda insan hüquqlarının kobud şəkildə pozulması kimi qəbul olunan, həmçinin müəyyən hallarda insanlığa qarşı cinayətlər kateqoriyasına daxil edilən əməllərdir. Bu cür zorakı əhali hərəkətləri sadəcə fərdlərin fiziki yerinin dəyişdirilməsi ilə məhdudlaşmır, əksinə, onların mədəni kimliyinə, ictimai quruluşuna və həyat tərzinə qarşı yönəlmiş sistemli hücumlar şəklində meydana çıxır. Müasir beynəlxalq hüququn prinsiplərinə əsasən, geniş və ya sistemli xarakter daşıyan deportasiya aktları, xüsusilə də müəyyən əhali qrupuna qarşı etnik, dini və ya siyasi mənsubiyyət əsasında həyata keçirilirsə, Roma Statutunun 7-ci maddəsinə uyğun olaraq insanlığa qarşı cinayət hesab edilir.

Bu cür əməllərə qarşı beynəlxalq hüquq normaları yalnız normativ qadağalarla kifayətlənmir, həm də Beynəlxalq Cinayət Məhkəməsi (BCM), keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalı və Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalının presedent qərarları vasitəsilə möhkəmləndirilmişdir. Həmçinin, deportasiya və məcburi köçürmə aktlarının hüquqi qiymətləndirilməsi Azərbaycanın regional və tarixi reallıqları fonunda da əhəmiyyətli müzakirə mövzusudur. Azərbaycanın bəzi bölgələrində etnik azərbaycanlılara qarşı həyata keçirilmiş zorakı köçürmələr beynəlxalq hüququn prinsipləri ilə müqayisəli şəkildə dəyərləndirilməli və hüquqi qiymət verilməlidir.

Bu məqalədə deportasiya və məcburi köçürmənin beynəlxalq cinayətlər sistemində yeri beynəlxalq hüquq normaları və tətbiq təcrübəsi əsasında təhlil olunur. Eyni zamanda, Azərbaycan kontekstində bu cinayətin tarixi təzahürləri və hüquqi nəticələri araşdırılır. Tədqiqatın məqsədi beynəlxalq hüquqla milli hüququn bu sahədə necə uzlaşdığını, hansı hallarda deportasiyanın cinayət tərkibi daşıdığını və bu cür halların qarşısının alınması üçün beynəlxalq mexanizmlərin nə dərəcədə effektiv olduğunu qiymətləndirməkdən ibarətdir.

***Əhalinin deportasiyası və məcburi köçürülməsi: beynəlxalq cinayət hüququ kontekstində hüquqi qiymətləndirmə və Azərbaycan təcrübəsi***

Tarix boyu siyasi, etnik, dini və iqtisadi səbəblərlə milyonlarla insan yaşadıqları yerlərdən zorla köçürülmüş, doğma torpaqlarından uzaqlaşdırılmış və çox zaman bu köçlər kütləvi insan hüquqları pozuntularına səbəb olmuşdur. Deportasiya və ya məcburi köçürmə aktları xüsusilə münaqişə bölgələrində və avtoritar rejimlər şəraitində insanlığa qarşı ağır cinayətlər kimi qeydə alınmışdır. Bu cinayətlər təkcə fərdlərin hüquqlarını deyil, bütöv toplumların mədəni, sosial və iqtisadi strukturlarını sarsıdır və uzunmüddətli humanitar fəsadlara səbəb olur.

Deportasiya və məcburi köçürmə beynəlxalq hüquqda yer alan, hüquqi cəhətdən dəqiq şəkildə müəyyən edilmiş cinayət kateqoriyalarına aiddir. Müasir beynəlxalq hüquq sistemində bu əməllər, xüsusilə insanlığa qarşı cinayətlər çərçivəsində qiymətləndirilir və dövlətlərə qarşı həm hüquqi, həm də siyasi məsuliyyət yaradır. Bu səbəbdən, deportasiya və məcburi köçürmə cinayətlərinin beynəlxalq hüquq sistemindəki yeri və onların doğurduğu hüquqi nəticələrin araşdırılması xüsusi aktuallıq daşıyan bir tədqiqat sahəsidir.

Beynəlxalq hüquqda "beynəlxalq cinayətlər" anlayışı, bütün dünya ictimaiyyəti tərəfindən qəti şəkildə qadağan edilən və beynəlxalq sülhə, təhlükəsizliyə və insanlığa qarşı yönəlmiş ən ağır hüquq pozuntularını əhatə edir. Bu cinayətlər fərdi şəxslər və ya dövlətlər tərəfindən törədilsə də, onların təsiri və məsuliyyəti yalnız milli hüquqla deyil, beynəlxalq hüquqla da müəyyən olunur. Ənənəvi olaraq beynəlxalq cinayətlərə soyqırımı, müharibə cinayətləri, insanlığa qarşı cinayətlər və təcavüz cinayəti (yəni digər dövlətə qarşı silahlı təcavüz) daxildir.

Bu cinayətlərdən biri kimi, deportasiya və məcburi köçürmə cinayəti də xüsusilə vurğulanır. Deportasiya – fərdlərin və ya əhalinin öz istəkləri olmadan, yəni zorla və ya hədə-qorxu yolu ilə yaşadıqları ərazilərdən çıxarılaraq başqa yerə köçürülməsi – Roma Statutunun 7-ci maddəsində insanlığa qarşı cinayət kimi tanınır. Beynəlxalq Cinayət Məhkəməsinin (BCM) əsas hüquqi sənədi olan bu Statutda qeyd edilir ki, bu cür əməllər insan hüquqlarının kobud şəkildə pozulması kimi qiymətləndirilir və beynəlxal cinayət məsuliyyəti yaradır [8].

Əhalinin deportasiyası və ya məcburi köçürülməsi, sadəcə inzibati və ya siyasi qərar deyil, eyni zamanda, etnik təmizləmə, soyqırımı və sistemli zorakılıq aktlarının tərkib hissəsi ola bilər. Bu baxımdan, deportasiya bəzən yalnız bir dövlətin daxili məsələsi kimi deyil, bütün beynəlxalq ictimaiyyətin maraq dairəsində olan və hüquqi cavab tələb edən beynəlxalq cinayət sayılır. Məsələn, keçmiş Yuqoslaviya və Ruanda münaqişələri zamanı baş vermiş zorla köçürmə hadisələri, beynəlxalq tribunallarda insanlığa qarşı cinayətlər kimi tanınıb və bu cinayətlərə görə məsul şəxslər mühakimə olunublar.

Bu mənada beynəlxalq cinayət anlayışı həm hüquqi, həm də etik ölçülərə malikdir. Beynəlxalq hüquq sistemi bu cür cinayətlərin qarşısını almaq, qurbanlara ədalət təmin etmək və cinayətkarları məsuliyyətə cəlb etmək məqsədilə həm dövlətlərarası əməkdaşlıq, həm də müstəqil beynəlxalq məhkəmə orqanları vasitəsilə fəaliyyət göstərir. Deportasiya və məcburi köçürmə kimi cinayətlərdə də bu beynəlxalq hüquqi çərçivə xüsusi aktuallıq daşıyır, çünki bu əməllər birbaşa olaraq mülki əhalinin hüquqlarını pozur və insanlığa qarşı planlı zorakılığın göstəricisi olur [6, s. 5].

Ümumiləşdirərək qeyd edə bilərik ki, beynəlxalq hüquqda beynəlxalq cinayətlər dörd əsas növə bölünür: soyqırımı, insanlığa qarşı cinayətlər, müharibə cinayətləri və təcavüz (aqressiya) cinayətləri.

Beləliklə, beynəlxalq hüquqda "beynəlxalq cinayət" dedikdə, ümumbəşəri dəyərlərə və insan

hüquqlarına qarşı yönəlmiş, böyük miqyaslı və sistematik xarakter daşıyan əməllər nəzərdə tutulur. Deportasiya və məcburi köçürmə də bu kateqoriyaya daxil edilərək, insanlığa qarşı cinayət kimi beynəlxalq səviyyədə cinayət məsuliyyəti doğuran əməllər kimi tanınır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində əhalinin deportasiyası və ya məcburi köçürülməsi cinayəti beynəlxalq cinayətlərin tərkib hissəsi kimi 107-ci maddədə təsbit olunub:

"Beynəlxalq hüquq normaları və Azərbaycan Respublikasının qanunları ilə müəyyən edilmiş əsaslar olmadıqda, əhalini qanuni yerləşdiyi yerlərdən başqa ölkəyə qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma – on ildən on beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır" [1, s. 182].

Deportasiya və məcburi köçürmə anlayışları beynəlxalq hüquqda geniş müzakirə olunan, xüsusilə münaqişə şəraitində həyata keçirilən və ciddi insan hüquqları pozuntuları ilə müşayiət olunan ağır beynəlxalq cinayətlər sırasına daxildir. Bu terminlər müxtəlif hüquqi sənədlərdə fərqli məzmunlarda işlədilsə də, onların ortaq cəhəti – fərdlərin və ya əhalinin öz razılığı olmadan doğma yurdlarından çıxarılması və başqa bir əraziyə zorla köçürülməsi ilə bağlı olmasıdır.

Əhalini deportasiya etmə və ya məcburi köçürmə cinayətinin əsas bilavasitə obyekti qismində beynəlxalq hüququn əsas prinsiplərindən biri olan insan hüquqlarına və əsas azadlıqlarına hörmət prinsipindən irəli gələn yaşayış yerini seçmək azadlığını, hərəkət azadlığını təmin edən ictimai münasibətlər, əlavə bilavasitə obyekti qismində isə mülkiyyət hüququ və s. çıxış edir. Qeyd edək ki, 107-ci maddənin adı normanın dispozisiyasında təsbit olunan əməldən daha genişdir. Belə ki, beynəlxalq hüquqda bu iki anlayış – əhalinin deportasiyası və əhalinin məcburi köçürülməsi bir-birindən əsaslı şəkildə fərqləndirilir.

Deportasiya əhalinin iradəsinə zidd olaraq başqa dövlətə, qanuni yerləşdiyi yerdən qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma deməkdir [7].

Əhalinin məcburi köçürülməsi isə dövlət daxilində qanuni yerləşdiyi yerdən qovma və ya digər məcburi hərəkətlərlə didərgin salma deməkdir [4, s. 99].

Əhalinin deportasiyası və ya məcburi köçürülməsi beynəlxalq hüquqda insanlığa qarşı cinayət kimi tanınmış və bu barədə bir sıra beynəlxalq məhkəmə presedentləri formalaşmışdır. Xüsusilə keçmiş Yuqoslaviya üzrə Beynəlxalq Cinayət Tribunalının "Prosecutor v. Krstić" işi üzrə qərarında Srebrenitsa şəhərində bosniyalı müsəlman əhalinin sistemli şəkildə yaşayış yerlərindən çıxarılması məcburi köçürmə (forcible transfer) kimi insanlığa qarşı cinayət hesab edilmişdir. Tribunal bu əməllərin fiziki zorakılıqdan daha çox, etnik təmizləmə niyyəti ilə həyata keçirildiyini təsdiqləmişdir. Eyni zamanda, Beynəlxalq Cinayət Məhkəməsi Myanmada Rohinja müsəlmanlarının zorla Banqladeş sərhədinə köçürülməsi ilə bağlı istintaq başlamış və bunu da deportasiya cinayəti kimi qiymətləndirmişdir. Bu presedentlər beynəlxalq hüquqda deportasiyanın təkcə silahlı münaqişə dövründə deyil, həm də sülh şəraitində geniş və sistemli həyata keçirildikdə cinayət sayıldığını göstərir.

"Beynəlxalq hüquq sistemində deportasiya və məcburi köçürmə, ilk növbədə insanlığa qarşı cinayətlər kontekstində qiymətləndirilir. Bu sahədə əsas hüquqi sənəd hesab olunan 1998-ci il Roma Statutunun 7-ci maddəsində "əhalinin deportasiyası və ya məcburi köçürülməsi" termini – fərdin və ya əhalinin, beynəlxalq hüququn icazə vermədiyi hallarda, öz iradəsinə zidd olaraq daimi yaşadığı ərazidən çıxarılması kimi tərif edilir. Statutun 7-ci maddəsinin 1(d) bəndində bu əməlin insanlığa qarşı cinayət olduğu açıq şəkildə qeyd olunur" [2, s.11]:

"Əhalinin deportasiyası və ya məcburi köçürülməsi – həmin şəxslərin yaşayış hüququ olan ərazini tərk etməyə zorlanması deməkdir" [2, s.12].

Roma Statutuna görə bu cür əməllər insanlığa qarşı cinayət hesab olunur və fərdi cinayət məsuliyyəti yaradır. Deportasiya həmçinin Cenevrə Konvensiyalarının IV əlavəsində də qadağan edilir. Xüsusilə 1949-cu il tarixli Dördüncü Cenevrə Konvensiyasının 49-cu maddəsində işğalçı gücün yerli əhalini öz iradəsinə zidd olaraq kütləvi şəkildə köçürməsi qəti surətdə qadağan olunur [5, s. 61].

Deportasiya və məcburi köçürmə aktları sadəcə inzibati tədbir yox, həm də beynəlxalq cinayət xarakteri daşıyır. Xüsusilə etnik, dini və ya siyasi mənsubiyyətinə görə həyata keçirilən kütləvi köçürmələr etnik təmizləmə və soyqırımı aktlarına yol aça bilər. Bu da onları müharibə cinayətləri, insanlığa qarşı cinayətlər, hətta bəzən soyqırımı kimi qiymətləndirməyə şərait yaradır. Məsələn, keçmiş Yuqoslaviya və Ruanda üzrə Beynəlxalq Cinayət Tribunalları tərəfindən qəbul olunmuş bir sıra qərarlarda deportasiya əməlləri insanlığa qarşı cinayətlər kateqoriyasında qiymətləndirilmişdir.

2001-ci ildə Krstić işi üzrə ICTY Bosniya müsəlmanlarının zorla köçürülməsini və Srebrenitsa soyqırımını insanlığa qarşı cinayət kimi tanımışdır [6, s.181].

Məcburi köçürmə yalnız müharibə dövründə yox, sülh zamanı da insanlığa qarşı cinayət ola bilər. Bu xüsusda, BMT İnsan Hüquqları Komitəsi və Beynəlxalq Cinayət Məhkəməsi deportasiya və məcburi köçürmə hallarına dair müxtəlif hesabatlar və qərarlar qəbul etmişdir. Məsələn, Myanma hökumətinin Rohinja müsəlmanlarının məcburi köçürülməsi ilə bağlı fəaliyyəti 2019-cu ildə Beynəlxalq Cinayət Məhkəməsi tərəfindən ilkin istintaqa cəlb olunmuşdur (ICC, 2019).

Əhalinin zorla deportasiyası və ya məcburi köçürülməsi beynəlxalq hüquqda insanlığa qarşı cinayət kimi təsnif edilir və bu cür əməllərin beynəlxalq ictimaiyyət tərəfindən pislənməsi və hüquqi məsuliyyətə cəlb olunması vacibdir. Tarixi təcrübə göstərir ki, bu cinayətlər təkcə Avropa və Afrika qitələrində deyil, eləcə də Cənubi Qafqazda, xüsusilə Azərbaycan ərazisində və azərbaycanlı əhaliyə qarşı da həyata keçirilmişdir. Bu hallar beynəlxalq hüququn birbaşa pozuntusu olmaqla yanaşı, regionda etnik balansın süni şəkildə dəyişdirilməsinə xidmət etmiş və bu gün də davam edən humanitar problemlərə yol açmışdır [5, s. 35].

Sovet İttifaqı rəhbərliyi tərəfindən qəbul edilmiş qərarlar əsasında 1948–1953-cü illərdə Ermənistan SSR ərazisində yaşayan azərbaycanlılar planlı şəkildə Azərbaycanın Kür-Araz ovalığına deportasiya edilmişdir. Bu qərar SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli № 4083 saylı qərarı ilə təsdiqlənmişdir. Rəsmi izahat kimi bu ərazilərdə pambıqçılığın inkişaf etdirilməsi və iqtisadi ehtiyaclar göstərilsə də, əslində bu proses etnik mühəndislik siyasəti xarakteri daşıyırdı [3, s. 46].

Təxminən 100 min nəfərə yaxın azərbaycanlı ailə öz doğma kənd və şəhərlərindən zorla köçürülmüş, onların yerinə isə xaricdən köçürülən erməni ailələr yerləşdirilmişdir. Deportasiya prosesi çətin sosial-iqtisadi şəraitdə aparıldığından, çox sayda insan həyatını itirmişdir. Bu əməl beynəlxalq hüququn mülki əhalinin zorla köçürülməsinə dair qadağalarını pozur və insanlığa qarşı cinayət kimi qiymətləndirilə bilər.

Ermənistan tərəfindən həyata keçirilmiş ən sistemli deportasiya dalğalarından biri 1988–1991-ci illərdə baş vermişdir. Qarabağ münaqişəsinin başlanğıcı ilə paralel şəkildə, Ermənistanda yaşayan təxminən 250 min nəfər azərbaycanlı müxtəlif zorakı üsullarla – qətllər, evlərin yandırılması, təhqirlər və işgəncələr vasitəsilə – öz yaşayış yerlərindən çıxarılmışdır [2, s. 67].

Bu deportasiya prosesi zamanı 216 nəfər azərbaycanlı qətlə yetirilmiş, yüzlərlə insan isə yaralanmış və ya itkin düşmüşdür. Ermənistan bu əməllərlə öz ərazisini monoetnik dövlətə çevirmişdir. Bu faktlar beynəlxalq hüquq baxımından etnik təmizləmə siyasəti və insanlığa qarşı sistemli zorakılıq kimi qiymətləndirilə bilər.

Beynəlxalq hüquqda bu cür əməllər Roma Statutunun 7-ci maddəsində göstərilən deportasiya cinayətinin əlamətlərinə tam uyğundur. Azərbaycan bu məsələləri beynəlxalq platformalarda – xüsusilə BMT və ATƏT çərçivəsində – dəfələrlə gündəmə gətirmişdir.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində 1990-cı illərin əvvəllərində Qarabağ və 7 rayon işğal edilmiş, həmin ərazilərdən təxminən 700 min nəfər azərbaycanlı məcburi şəkildə öz evlərindən didərgin salınmışdır. Bu əhali uzun illər çadırlarda, uçuq binalarda və çox ağır şəraitdə yaşamağa məcbur olmuşdur.

Bu hadisələr mülki əhalinin beynəlxalq humanitar hüquqla qorunan hüquqlarının kobud şəkildə pozulmasıdır. Xüsusilə Cenevrə Konvensiyasının IV maddəsi, mülki əhalinin zorla köçürülməsini qadağan edir.

Azərbaycan tarixində baş vermiş deportasiya və məcburi köçürmələr, beynəlxalq hüququn əsas prinsiplərinə – xüsusilə mülki əhalinin müdafiəsinə dair normalara – ziddir və insanlığa qarşı cinayətlərin bütün hüquqi əlamətlərini daşıyır. Həm sovet dövründə, həm də Ermənistan tərəfindən həyata keçirilən bu sistematik deportasiyalar beynəlxalq hüququn diqqət mərkəzində olmalı və hüquqi-siyasi qiymətini almalıdır. Bu proseslərin tanınması və müvafiq məsuliyyətin müəyyən edilməsi, regional sabitlik və ədalət baxımından olduqca vacibdir.

Müasir beynəlxalq hüquq sistemində deportasiya və məcburi köçürmə halları insan hüquqları və beynəlxalq humanitar hüququn ciddi pozuntuları kimi qəbul edilir. Bu gün dünya birliyi belə cinayətlərə qarşı sıfır dözümlülük siyasəti yürüdür və bu cür halların qarşısını almaq üçün müxtəlif hüquqi, diplomatik və humanitar tədbirlər həyata keçirir. Beynəlxalq təşkilatlar, dövlətlər və qeyri-hökumət qurumları deportasiyaya qarşı birgə mövqe nümayiş etdirir, həmçinin qurbanların hüquqlarının qorunması, təzminatların verilməsi və gələcəkdə oxşar hallarının qarşısının alınması üçün çağırışlar edir.

Müasir dövrdə xüsusilə regional münaqişələrdə – Suriya, Yəmən, Myanma (Rohinja böhranı) və digər yerlərdə baş verən məcburi köçürmələr beynəlxalq ictimaiyyət tərəfindən diqqətlə izlənilir. BMT və digər təşkilatlar təcili humanitar yardımın göstərilməsi, məcburi köçürülənlərin təhlükəsizliyinin təmin olunması, eləcə də cinayətkarların məsuliyyətə cəlb olunması üçün ardıcıl çağırışlar edir (UNHCR, 2022).

Beynəlxalq ictimaiyyətin və xüsusilə güclü dövlətlərin deportasiya hallarına qarşı reaksiyası təkcə hüquqi çərçivə ilə məhdudlaşmır. Sanksiyalar, diplomatik təzyiqlər və beynəlxalq məhkəmələrdə təqib kimi vasitələrlə zorla köçürmə və etnik təmizləmə siyasətlərinə qarşı mübarizə aparılır. Məsələn, Avropa İttifaqı və ABŞ tərəfindən Myanma hökumətinə qarşı tətbiq edilən sanksiyalar Rohinja əhalisinə qarşı zorakılıq və deportasiya hallarına cavabdır.

QHT-lər və beynəlxalq insan hüquqları təşkilatları müasir dövrdə deportasiya halları ilə bağlı müşahidələr aparır, zorla köçürmə qurbanlarının hüquqlarını müdafiə edir və bu mövzuda beynəlxalq kampaniyalar təşkil edir. Onlar həmçinin, dövlətlərdən zorla köçürmənin dayandırılması, qurbanlara kompensasiya verilməsi və ədalətin təmin olunması üçün çağırışlar edir.

"Bu təşkilatlar münaqişə bölgələrində insan hüquqları pozuntularını sənədləşdirir, bu cinayətlərin beynəlxalq hüquq normalarına uyğun şəkildə araşdırılmasını və məsuliyyət daşıyan şəxslərin cəzalandırılmasını tələb edirlər." Beynəlxalq ictimaiyyətin deportasiyaya qarşı reaksiyaları daha çox önləyici xarakter daşı-

malıdır. Bu məqsədlə effektiv monitorinq mexanizmlərinin yaradılması, beynəlxalq hüquq normalarının tətbiqinin gücləndirilməsi və münaqişələrin sülh yolu ilə həllinə yönəlmiş səylərin artırılması vacibdir. Eyni zamanda, qurbanların sosial-iqtisadi və psixoloji reabilitasiyası, onların geri qayıdışı üçün şəraitin yaradılması beynəlxalq əməkdaşlığın önəmli istiqamətlərindəndir.

Əhalinin deportasiyası və məcburi köçürülməsi beynəlxalq hüquq sistemində ağır cinayət kimi qiymətləndirilir və insan hüquqlarının ən fundamental pozuntularından biridir. Azərbaycan tarixində də bu cinayətlər müxtəlif dövrlərdə geniş miqyasda həyata keçirilmiş, sovet repressiyaları və Ermənistanın etnik təmizləmə siyasəti nəticəsində minlərlə azərbaycanlı doğma yurdlarından didərgin salınmışdır. Müasir beynəlxalq hüquq və humanitar hüquq çərçivəsində bu cür halların qarşısının alınması üçün hüquqi mexanizmlər mövcuddur və beynəlxalq ictimaiyyət bu məsələyə ciddi diqqət ayırır. Buna baxmayaraq, regionda və dünya üzrə deportasiya halları hələ də davam etməkdədir və bu, beynəlxalq hüququn təkmilləşdirilməsi, gücləndirilməsi və effektiv tətbiqinin vacibliyini bir daha göstərir. Beynəlxalq əməkdaşlıq, hüquqi məsuliyyətin həyata keçirilməsi və insan hüquqlarının qorunması istiqamətində səylərin artırılması yalnız hüquqi ədalətin bərpasına deyil, həm də regionda sülh və sabitliyin təmin olunmasına xidmət edəcəkdir.

## NƏTİCƏ

Deportasiya və əhalinin məcburi köçürülməsi müasir beynəlxalq hüququn ən ağır cinayətləri sırasına daxildir və xüsusilə insanlığa qarşı cinayətlər kateqoriyasında qiymətləndirilir. Roma Statutunun 7-ci maddəsində bu əməllər açıq şəkildə insan hüquqlarının sistemli və genişmiqyaslı pozuntusu kimi tanınır və fərdi cinayət məsuliyyəti doğurur. Həm sülh, həm də müharibə dövründə törədilə bilən bu cinayətlər təkcə hüquqi deyil, həm də siyasi, humanitar və etik müstəvidə ciddi nəticələrə səbəb olur.

Tarixi faktlar göstərir ki, Azərbaycan xalqı bu cinayətlərlə müxtəlif dövrlərdə – istər SSRİ-nin repressiv siyasəti çərçivəsində, istərsə də Ermənistanın planlı etnik təmizləmə strategiyası nəticəsində üz-üzə qalmışdır. 1940–50-ci illərdə Qərbi Azərbaycandan kütləvi köçürülmələr, 1988-ci ildən başlayan və 1990-cı illərdə miqyasını genişləndirən etnik təmizləmə nəticəsində yüz minlərlə azərbaycanlının doğma torpaqlarından zorla çıxarılması beynəlxalq hüququn birbaşa pozuntusu olmaqla, bu əməllərin insanlığa qarşı cinayət olduğunu açıq şəkildə sübut edir.

Beynəlxalq hüququn nəzəri və praktiki mexanizmləri bu kimi halların qarşısının alınması və cinayətkarların məsuliyyətə cəlb edilməsi üçün mövcud olsa da, faktiki reallıq göstərir ki, onların tətbiqi çox zaman siyasi iradə, beynəlxalq təşkilatların aktivliyi və dövlətlərarası əməkdaşlıqdan asılı olur.

Azərbaycan təcrübəsi göstərir ki, deportasiya və məcburi köçürmə təkcə keçmişin hüquqi qiymətləndirilməsi məsələsi deyil, həm də gələcəyə yönəlik qabaqlayıcı və bərpaedici tədbirlərin vacibliyini ön plana çıxarır. Qurbanların hüquqlarının bərpası, təzminat hüququnun təmin edilməsi, geri qayıdış hüququnun tanınması və bu əməlləri törədənlərin beynəlxalq məsuliyyətə cəlb olunması beynəlxalq ictimaiyyətin üzərinə düşən əsas vəzifələrdən biridir.

Nəticə olaraq, deportasiya və məcburi köçürmə cinayətlərinə qarşı effektiv mübarizə yalnız beynəlxalq hüquqi çərçivənin gücləndirilməsi ilə deyil, həm də siyasi iradənin möhkəmləndirilməsi, müstəqil beynəlxalq məhkəmə sistemlərinin dəstəklənməsi, qurbanların müdafiəsinə yönəlmiş mexanizmlərin təkmilləşdirilməsi və beynəlxalq ictimaiyyətin daha prinsipial və ardıcıl mövqe nümayiş etdirməsi ilə mümkün ola bilər. Bu cür kompleks yanaşma yalnız hüquqi ədaləti bərpa etməyə deyil, eyni zamanda, regional sabitliyin və qlobal insan hüquqları sisteminin möhkəmlənməsinə də xidmət edəcəkdir.

**İstifadə edilmiş ədəbiyyat siyahısı:**

1. Azərbaycan Respublikasının Cinayət Məcəlləsi // Azərbaycan Respublikasının 30 dekabr 1999-cu il tarixli 787-IQ nömrəli Qanunu ilə təsdiq edilmişdir: [Elektron resurs] /URL: https://www.e-qanun.az/framework/46947

2. Bayramov A. Tarixi faciələrimiz: deportasiya, repressiya və soyqırım. – Bakı: "AM965" MMC-nin mətbəəsi, – 2015. – 416 s.

3. Nağıyev F. 1948-1953-cü illərdə Qərbi azərbaycanlıların öz torpaqlarından deportasiyası: tarixi kökləri və siyasi-hüquqi nəticələri // Dövlət idarəçiliyi: nəzəriyyə və təcrübə. – 2023. – № 2(82). – S. 45-58.

4. Səmədova Ş. Transmilli cinayət hüququnun nəzəri və praktiki problemlər. – Bakı: [n.y.], – 2023. – 304 s.

5. Rome Statute of the International Criminal Court. – The Hague: International Criminal Court, – 2011. – 80 s.

6. Глотова С.В. Концепция преступлений против человечности: общепризнанность и существенные признаки в свете современного развития международного права // Вестник Санкт-Петербургского университета. Серия 14. Право. – 2016. – Вып. 3. – С. 43-52.

7. : [Electronic resource] /URL: https://slovar-gumanitarnogo-prava.org/content/article/4/peremeshchenie-naseleniia/

8. Rome Statute of the International Criminal Court, 2021: [Electronic resource] /URL: https://www.icc-cpi.int/sites/default/files/2024-05/Rome-Statute-eng.pdf

**Бабаева Нармин Сахиб гызы,**
магистрант II курса кафедры уголовного права
и криминологии Бакинского государственного университета

## МЕСТО ПРЕСТУПЛЕНИЯ ДЕПОРТАЦИИ ИЛИ НАСИЛЬСТВЕННОГО ПЕРЕМЕЩЕНИЯ НАСЕЛЕНИЯ В СИСТЕМЕ МЕЖДУНАРОДНЫХ ПРЕСТУПЛЕНИЙ

### РЕЗЮМЕ

В данной статье всесторонне рассматривается место депортации и принудительного переселения в системе международных преступлений как с точки зрения правовой и нормативной базы, так и в контексте исторического опыта Азербайджана. Автор ссылается на Римский статут, Женевские конвенции и другие важные международно-правовые документы, доказывая, что указанные действия признаются преступлениями против человечности в международном праве. Массовые депортации в советский период — в частности, насильственное выселение азербайджанцев из Западного Азербайджана в 1944 году, а также политика этнической чистки, проводимая Арменией с 1988 года, в результате которой сотни тысяч азербайджанцев были вынуждены покинуть свои родные земли — представлены как конкретные исторические примеры подобных преступлений. Эти события оцениваются как грубые нарушения норм международного права и доведены до сведения международной общественности. В современную эпоху международные организации и государства предпринимают юридические и дипломатические меры против преступления депортации, призывая к защите прав жертв, обеспечению их права на возмещение ущерба и привлечению преступников к ответственности.

В конечном счете, эффективная борьба с такими преступлениями возможна не только за счёт укрепления правовой базы, но и благодаря международному сотрудничеству, политической воле, уважению прав человека, обеспечению права на справедливое судебное разбирательство и усилению глобальных механизмов реагирования.

**Babayeva Narmin Sahib,**
2nd year master's student, Criminal Law and
Criminology Department, Baku State University

**THE PLACE OF THE CRIME OF DEPORTATION OR FORCED TRANSFER OF POPULATION IN THE SYSTEM OF INTERNATIONAL CRIMES**

**SUMMARY**

This article comprehensively examines the place of deportation and forced displacement within the system of international crimes, both in terms of legal-normative framework and within the context of Azerbaijan's historical experience. The author refers to the Rome Statute, the Geneva Conventions, and other significant international legal instruments to substantiate that these acts are recognized as crimes against humanity under international law. Mass deportations during the Soviet era—particularly the forced displacement of Azerbaijanis from Western Azerbaijan in 1944—and the ethnic cleansing policy carried out by Armenia since 1988, which resulted in the expulsion of hundreds of thousands of Azerbaijanis from their native lands, are presented as concrete historical examples of such crimes. These events are evaluated as serious violations of international law and have been brought to the attention of the international community. In the modern era, international organizations and states are implementing legal and diplomatic measures against the crime of deportation, calling for the protection of victims' rights, the provision of reparations, and the prosecution of perpetrators.

Ultimately, combating such crimes effectively requires not only strengthening the legal framework but also enhancing international cooperation, political will, respect for human rights, the right to a fair trial, and robust global response mechanisms.

**Redaksiyaya daxilolma tarixi: 29.12.2025**
**Təkrar işlənməyə göndərilmə tarixi: 08.01.2026**
**Çapa qəbul olunma tarixi: 10.01.2026**